**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN CAZ PİANOÇULARININ İFAÇILIQ FƏALİYYƏTİNDƏ TƏFSİR PROBLEMİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Cəmilə Tahir qızı Əmirova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Turan Vasim qızı Məmmədəliyeva**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, dosent
**İnara Eldar qızı Məhərrəmova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Ülkər Kamal qızı Talıbzadə**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Cəmilə Bəşarət qızı Mirzəyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ______________ sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: ______________ sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: ______________ sənətşünaslıq doktoru, dosent
**Aytac Elxan qızı Rəhimova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan caz mədəniyyəti dünya musiqi irsinin bir hissəsidir. XXI əsrdə yerli caz sənətinin çoxsaylı məsələlərinin tədqiqinin aktuallığı ölkədə caz cərəyanlarının rəngarəngliyi ilə bağlıdır. Beləliklə, ifaçılıq sənətinin dərk edilməsi və qavranılması, milli caz irsinin təfsir məsələləri ilə bağlı bir sıra problemlər formalaşır. XX əsrin əvvəllərində onlar Azərbaycan musiqiçilərinin mühitinə nüfuz edərək, bu gün Azərbaycanın müasir caz mədəniyyətinin bir çox xüsusiyyətlərini cəmləşdirən "Tofiq Quliyevin cazı", "Qarayevın" simfo-cazı, Vaqif Mustafazadənin "caz-muğam"ı, Rafiq Babayevin folklor cazı adları ilə tanınan yeni milli caz üslublarının yaranmasına təkan vermişlər.

İnterpretasiya məsələləri həmişə aktualdır, çünki ifa prosesində pianoçuluq sənətinin öyrənilməsinə həsr edilmişdir. Caz interpretasiyalarının öyrənilməsi məsələlərinə gəlincə isə, onlar ikiqat mürəkkəb və aktualdır, çünki eyni zamanda bir neçə proseslə, məsələn, canlı improvizasiya və aranjimanla əlaqələndirilir.

Bəstəkarın notlaşdırılmış caz fortepiano pyesinin caz pianoçusu və akademik pianoçuluq məktəbinin təmsilçisi tərəfindən interpretasiyaları daim fərqli olur. Ümumi klassik interpretasiya vərdişləri illər ərzində, not musiqi mətnlərilə tanışlıq və onların oxunması yolu ilə formalaşır. Caz musiqisi dünyasında isə notlu mətn caz musiqisinin yaranmasından yarım əsr sonra yaranır. Bu halda interpretasiya audio- və ya video-material şəklində yaşayır. İnterpretasiyalar tarixində belə bir xüsusiyyətin meydana gəlməsi bilavasitə XX əsrin səsyazma sənayesi ilə bağlıdır.

Notlu mətnin akademik pianoçu ilə caz pianoçusu arasında oxunması prinsipləri də fərqlidir. Akademik pianoçuluq məktəbinin nümayəndəsi caz mətnini barokko, klassisizm, romantizm, impressionizm və müasir dövrün notlu bəstəkar mətnlərinin oxunmasında toplanmış təcrübə vasitəsilə oxuyur. Caz ifaçısına gəlincə, həmin əsərdə caz ifaçısı hər hansı bir caz istiqamətinin improvizasiya həyatını, janr ritmini "axtarır" və bütün interpretasiya prosesini svinqin nail olunması məharətinə həsr edir. Məsələn,

homofonik-harmonik fakturada akademik pianoçu melodiyanı ayırır, caz pianoçusu isə ön plana müşayiət edən akkordların ritmlərini çəkir, melodiyada isə vurğuların və dilin bir çox digər elementlərinin ritmik formulları şəbəkəsini axtarır. Caz pianoçu-bəstəkarı üçün interpretasiya prosesi səhnədə və ya audio material cəlb edilməklə əsərin birbaşa səhnədə yaradılması ilə bağlı yaradıcı proses kimi canlı ifadan başlayır.

Beləliklə, "Azərbaycan caz pianoçularının ifaçılıq fəaliyyətində təfsir problemi" mövzusunun aktuallığı interpretasiya məsələlərinin dəyişilməz canlılığından ibarətdir, həmçinin dünyada Ş.Növrəsli, E.Əfrasiyab, İ.Sarabski, E.Əsədli kimi müasir Azərbaycan caz pianoçularının və bir çox digər müasir ifaçıların yaradıcılığına marağın yenidən canlanması ilə bağlıdır.

Seçilmiş mövzunun aktuallığını şərtləndirən digər mühüm amilləri də qeyd etmək vacibdir. Burada milli caz mədəniyyətinin formalaşması tarixində üç əsas mərhələni qeyd etməliyik.

1) XX əsrin 20-ci illərinin əvvəllərində Aleksandr Sfasmanın rəhbərliyi altında Caz Orkestri, Leonid Utyosovun, Yakov Skomorovskinin "Tea-Caz", Georgi Lansberqin orkestri kimi ilk qastroledən sovet estrada-caz orkestrləri tərəfindən Bakıya gətirilən caz mədəniyyəti Azərbaycanın ilk Estrada-caz musiqiçilərinin formalaşmasına birbaşa təsir göstərmişdir. Belə ki, caz tarixində onun Tofiq Quliyev, Rauf Hacıyev və Tofiq Əhmədov kimi öz liderləri formalaşmışdır. Məhz onların yaradıcılığı Azərbaycan musiqisi ilə caz estetikasının sintezinin yaradılmasında ilk mərhələ olmuşdur. Onlar isə, öz növbəsində, yerli caz və estrada musiqisinin ilk musiqili ifadə sistemini formalaşdırmış, həm ifaçılıqda, həm də yerli caz standartlarının yaradılmasında musiqi-improvizasiya üsullarına ilk cəhdlər etmişlər.

2) Yüzillik ərzində Azərbaycanda caz ideyaları iki əsas cərəyana – Vaqif Mustafazadənin "caz-muğam" üslub tendensiyası və Rafiq Babayevin folk-cazına şaxələnməkdə etno-caz istiqaməti başda olmaqla öz caz üslublarının formalaşmasına qədər yüksəlmişdir. Gələcək nəslin yaradıcılığının əsasını təşkil edən milli model axtarışı və musiqi tematik ideyalarının inkişafı interpretasiya kimi komponentin tədqiqini daha da aktuallaşdırır.

3) Caz mədəniyyətinin tədqiqində seçilmiş mövzunun aktuallığına gəldikdə, postsovet onilliyində dünyanın caz səhnəsinə qoşulmağa imkan tapmış "Azərbaycan cazı" kimi musiqi-üslub təbəqəsinin formalaşmasının indiki mərhələsini də qeyd etmək lazımdır. Burada caz sənayesinin təşkilində, ölkədə caz təhsilinin və caz həyatının canlandırılmasında xüsusi aktuallığı xüsusilə vurğulamaq lazımdır. "Karvan", Bakı Caz Mərkəzi kimi caz klublarının yaradılmasından, dünya caz ulduzlarının iştirakı ilə konsertlərin, illik caz festivallarının və gecələrinin keçirilməsində və təşkilində böyük xidmətləri olan "Premier Limited Art Management" prodüser agentliyinin yaradılmasından başlayaq. Müxtəlif caz mədəniyyətlərinin kollaborasiya prosesi Azərbaycanda, özəl olaraq Bakıda caz həyatının yeni mərhələsinin başlanğıcını qoymuşdur və bu mərhələdə 2000-ci illərdən başlayaraq Bakı Caz Mərkəzi, eləcə də Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşəbbüsü və dəstəyi ilə caz təhsilinin əsasının yaradılmasına cəhd göstərilmişdir.

Azərbaycan pianoçularının beynəlxalq musiqi "dialoqu", onların əcnəbi həmkarları ilə əməkdaşlığı ifaçıların yaradıcılıq laboratoriyasını genişləndirməklə yanaşı, 1990-cı illərin ortalarından XXI əsrin əvvəllərinə kimi yeni ifaçılıq dalğasının yaranmasına da şərait yaratmışdır. 1990-cı illərdə Əzizə Mustafazadə, Salman Qəmbərov, on il sonra Şahin Növrəsli, Emil Əfrasiyab Məmmədov, İsfar Sarabski kimi pianoçuların adlarının dünya səhnəsinə çıxması, onların Montrö Festivalı (2009) çərçivəsində caz pianoçuları müsabiqəsi, Beynəlxalq Caz Günü (2012), Morgenland Festivalı (2013) kimi mötəbər ümumdünya caz tədbirlərində iştirakı və nominasiyaları Azərbaycan cazının dərk edilməsi və yüksəlişinə töhfə vermişdir.

4) Və nəhayət, caz interpretasiyasının öyrənilməsi məsələsi birbaşa caz təhsili məsələləri ilə bağlıdır. Azərbaycanın ali musiqi müəssisələrində caz fakültəsinin açılması ölkədə caz musiqisinin populyarlığının və aktuallığının nəticəsidir. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında və Azərbaycan Milli Konservatoriyasında "estrada ifaçılığı və populyar musiqi", o cümlədən "caz ifaçılığı" ixtisasları üzrə təhsil alan tələbələr üçün "Caz harmoniyası", "Pop-

musiqi və caz musiqisinin tarixi və nəzəriyyəsi" fənləri təqdim olunmuşdur.

SSRİ ölkələrində caz musiqisinin populyarlığı sovet caz pianoçuluq məktəbinin yaranmasına səbəb olmuşdur. "Yeni" məzmunlu musiqi onun müxtəlif üslublarının xüsusiyyətlərini mənimsəmək və öyrənmək yoluna qədəm qoyan bir çox akademik musiqiçilərin diqqətini cəlb etmişdir. Sovet caz pianoçuluğu tezliklə Oleq Lundstrem, Nikolay Levinovski, Vaqif Mustafazadə, Uno Nayssoo, Leonid Çijik, Vaqif Sadıxov, İqor Bril, Mixail Okun, Petras Vişnyauskas, Lembit Saarsalu və bir çox başqalarının simalarında öz ifaçılar nəslini üzə çıxarmışdır.

Sovet caz məktəbinin yaranması musiqi elmində yeni istiqamət formalaşdırmışdır. Caz sənətinin özünün, onun tarixi və nəzəri əsaslarının tədqiqinə, klassik caz musiqişünaslığına V.C.Konen [1], V.B.Feyertaq [2], A.N.Bataşyov [3] L.B.Pereverzev [4], A.Y.Petrov [5], D.P.Uxov, Y.S.Barban [6], Y.Q.Kinus [7], K.V.Moşkov [8] və b. kimi görkəmli Rusiya alimlərinin əsərləri aiddir.

Bu yeni problemin tədqiqi qarşıda duran vəzifə olaraq yerli ifaçılıq musiqişünaslığının öyrənilməsi ilə başladı. Klassik fortepiano ifaçılıq sənəti sahəsində interpretasiya nəzəriyyəsi istiqamətində elmi

---

[1] Конен, В.Дж. Пути Американской музыки / В.Дж.Конен. – Москва: Музыка, 1977. – 446 с.

[2] Фейртаг, В.Б. Джаз. Энциклопедический словарь / В.Б.Фейртаг. – Санкт-Петербург: Скифия, 2008. – 696 с.

[3] Баташёв, А.Н. Советский джаз / А.Н.Баташёв. – Москва: Музыка, 1972. – 175 с.

[4] Переверзев, Л.Б. Приношение Эллингтону и другие тексты о джазе / Л.Б.Переверзев. - Санкт-Петербург: Планета Музыки, 2011. – 512 с.

[5] Петров, А.Е. Джазовые силуэты / А.Е.Петров. – Москва: Музыка, – 1996. – 238 с.

[6] Барбан, Е.С. Чёрная музыка, белая свобода. Музыка и восприятие авангардного джаза / Е.С.Барбан. – Санкт-Петербург: Композитор, 2007. – 56 с.

[7] Кинус, Ю.Г. Джаз: Истоки и развитие / Ю.Г.Кинус. – Ростов-на-Дону: Феникс, 2011. – 491 с.

[8] Мошков, К.В. Индустрия джаза в Америке. XXI век. -2-е изд., испр. и доп. / К.В.Мошков. – Санкт-Петербург: Лань, Планета Музыка, 2013. – 640 с.

ədəbiyyat yaradan alimlərdən A.D.Alekseyevin[9], Y.İ.Milşteynin[10], Q.M.Koqanın[11], Y.K.Qofmanın[12] adlarını çəkmək lazımdır.

Şübhəsiz ki, sovet alimlərinin cazşünaslıq istiqamətində tədqiqatları XX əsrin əvvəllərində Amerika, Avropa və Afrika-Amerika alimlərinin fundamental əsərlərinə əsaslanırdı. C.Kollier[13], U.Sarcent[14], Y.E.Berendt[15], F.Starr[16], G.Giddins[17] və bir çox başqalarının əsərləri caz musiqişünaslığının klassikası hesab olunur. Bu alimlərin əsərlərində caza afro-amerikan və Avropa ənənələrinin qarışığı kimi baxılır; onlarda həmçinin caz üslublarının öyrənilməsi metodikası cilalanır.

Caz ifaçılığının demək olar ki, eyni vaxtda və SSRİ-nin ümumi tarixi-mədəni şəraitində formalaşmış Azərbaycan şaxəsi tədqiqat obyekti kimi dərhal diqqəti cəlb etməmişdir.

Tarixi hadisələr səbəbindən Azərbaycan musiqişünaslığında cazın ayrı-ayrı elementlərinin öyrənilməsi və ya caz mədəniyyətinin özünün dolayı yolla işıqlandırılması cəhdləri aşağıdakı müəlliflərin monoqrafiyalarında öz əksini tapmışdır: L.V.Karagiçeva[18],

---

[9] Алексеев, А.Д. История фортепианного искусства. Ч. I и II. -2-е изд., доп. / А.Д.Алексеев. – Москва: Музыка, 1988. – 415 с.

[10] Мильштейн, Я.И. Вопросы теории и истории исполнительства: Сборник статей / Я.И.Мильштейн. - Москва: Советский композитор, 1983. - 262 с.

[11] Коган, Г.М. Работа пианиста / Г.М.Коган. – Москва: Классика-XXI, 2004. – 204 с.

[12] Гофман, Й.К. Фортепианная игра. Ответы на вопросы о фортепианной игре / Й.К.Гофман. – Москва: Классика–XXI, 2007. – 190 с.

[13] Коллиер, Д.Л Становление джаза. Популярный исторический очерк / Д.Л.Коллиер. - Москва: Радуга, 1984. – 392 с.

[14] Сарджент, У. Джаз: генезис, музыкальный язык, эстетика / У. Сарджент. – Москва: Музыка, 1987. – 296 с.

[15] Berendt, J.E. The Jazz Book: From Ragtime to the 21st Century / J.E.Berendt, G.Huesmann; – New York: Lawrence Hill Book, 2009. – 819 p.

[16] Starr, F. Red and Hot: The Fate of Jazz in the Soviet Union / F.Starr. – New York: Oxford: Oxford University Press, 1983. -368 p.

[17] Giddins, G. Visions of Jazz / G.Giddins. – Oxford: Oxford University Press, 1st edition, 2000. – 704 p.

[18] Карагичева, Л.В. Кара Караев / Л.В.Карагичева. – Москва: Советский композитор, 1960. – 300 с.

Z.T.Abdullaeva [19], İ.M.Əfəndiyeva [20], R.F.Zoxrabov [21], E.A.Mirzəyeva[22]. Azərbaycan cazının ayrı-ayrı problemlərinin, onun tarixi formalaşması, nəzəri məsələlərinin və lokal caz mədəniyyətinin təşəkkülünün öyrənilməsi ilə bilavasitə R.Y.Fərhadov [23], N.İ.Hüseynova [24], T.V.Məmmədəliyeva [25], A.N.Hüseynova [26], F.R.Babayeva və digər musiqişünaslar məşğul olmuşlar.

Cazın ifaçılıq mədəniyyəti kimi öyrənilməsinə dair ilk cəhdlərdən danışarkən bu sahədə fundamental əsərlər üzərində dayanmaq lazımdır. Azərbaycanda fortepiano sənətinin tədqiqi tarixinə, xüsusən də Azərbaycan bəstəkarlarının müxtəlif janrlarda fortepiano musiqisinin interpretasiyası məsələlərinin tədqiqinə görkəmli alim, professor, Ü.Hacıbəyli adına BMA-nın nəzdində məktəb-studiyanın yaradıcısı T.A.Seyidov böyük töhfə vermişdir.

Azərbaycan pianoçularının interpretasiya məharəti məsələlərinin öyrənilməsində aşağıdakı əsərlər böyük maraq doğurur: F.Əmirovun "12 miniatür" nəşrinə yazdığı ön sözdə Z.Ə.Adıgözəlzadənin ifaçılıq qeydləri, M.N.Sadıqzadənin "Azərbaycan bəstəkarlarının fortepiano musiqisinin müasir yazı texnikası aspektində ifaçılıq interpretasiyası" mövzusunda dissertasiya işi (1975-2000)[27], N.L.Kəngərli-Nəcəfovanın "Müasir

---

[19] Abdullayeva, Z.T. Ecazkar sənətkar / Z.T.Abdullayeva. – Bakı: ÇİNAR-ÇAP, 2007. – 202 s.

[20] Эфендиева, И.М. Азербайджанская советская песня / И.М. Эфендиева. – Баку: Язычы, 1981. – 150 с.

[21] Zöhrabov, R.F. Rauf Hacıyev / R.F.Zöhrabov. – Bakı: Şur, 1993. – 24 s.

[22] Мирзоева, Э.А. Рауф Гаджиев / Э.А.Мирзоева. – Москва: Советский композитор, 1988. – 109 с.

[23] Фархадов, Р.Я. Вагиф Мустафазаде / Р.Я.Фархадов. – Баку: Язычы, 1986. – 84 с.

[24] Гусейнова, Н.И. Джаз в Азербайджане XX век / Н.И.Гусейнова. – Баку: Максофсет, 2020. – 175 с.

[25] Мамедалиева Т.В. Azərbaycanda bəstəkarlarının yaradıcılığında caz harmoniyası: / Авт. дис. докт. филос. по искусст. / – Баку, 2007. -24 с.

[26] Huseynova, A.N. Music of Azerbaijan. From mugham to opera / A.N.Huseynova. – Indiana: Indiana University Press, 2016. – 360 p.

[27] Садыгзаде, М.Н. Исполнительская интерпретация фортепианной музыки Азербайджанских композиторов в аспекте современной техники письма (1975-2000 гг.): / Авт. дис. докт. филос. по искусст. / – Баку, 2010. -25 с.

mərhələdə fortepiano ifaçılıq sənətində artikulyasiya problemi"[28], X.N.Rzayevanın "Müasir Azərbaycan pianoçularının ifaçılıq təcrübəsində müəllif mətni problemi"[29], A.A.Məhərrəmovanın "Azərbaycan fortepiano-ifaçılıq sənətində davamlılıq prinsipi"[30] əsərləri.

Fortepiano sənəti problemi, caz pianoçuluğunun tarixi və nəzəriyyəsinin ilk tədqiqatçısı L.S.Rzayevanın əsərləri xüsusilə fərqlənir.[31] O, həmçinin "şərq" və ya "Azərbaycan xalq pianoçuluğu" termininin müəllifidir ki, bu da xalq musiqisinin, muğamların, təsniflərin və rənglərin Avropa ənənələrinə uyğun alətlərdə (fortepiano, klarnet, mandolina, qarmon, gitara) ifasını nəzərdə tutur.

Caz problemlərinin tədqiqi ilə xüsusi məşğul olan müasir musiqişünaslardan V.Mustafazadə və R.Babayev yaradıcılığının tədqiqatçısı R.Y.Fərhadovu, Azərbaycan caz musiqisinin nəzəri problemlərinin tədqiqatçısı T.V.Məmmədəliyevanı qeyd edə bilərik. Ölkədə caz musiqisini peşəkar şəkildə nəzərdən keçirən jurnalist-publisistlərin də rolu qeyd olunmalıdır. Onların arasında postsovet dövrünün ilk caz tənqidçisi, resenziyaları, rəyləri və məqalələri jazz.ru, allaboutjazz.com kimi, mötəbər jurnal və saytlarda dərc olunan Rövşən Sənanoğlunu (Mustafayev), o cümlədən ölkədaxili və xarici mətbuatda dərc olunan Əbülfət Əhmədzadəni, Azər Cavad Əliyevi qeyd etmək yerinə düşər.

Bundan əlavə, bu tədqiqat üçün əlavə mənbələr V.Mustafazadəyə, T.Quliyevə (redaktor T.Məmmədov) həsr olunmuş "Caz-kvadrat" internet-nəşrlər, jazz.ru internet saytı olmuşdur.

---

[28] Кенгерли-Наджафова Н.Л. Проблема артикуляции в фортепианно-исполнительском искусстве на современном этапе: / Авт. дис. докт. филос. по искусст. / – Баку, 2021. – 27 с.

[29] Рзаева Х.Н. Проблема авторского текста в исполнительской практике современных азербайджанских пианистов: / Авт. дис. докт. филос. по искусст. / – Баку, 2007. – 27 с.

[30] Маггерамова А.А Принцип преемственности в азербайджанском фортепианно-исполнительском искусстве: / Авт. дис. докт. филос. по искусст. / – Баку, 2008. – 26 с.

[31] Рзаева, Л.С. Азербайджанский народный пианизм: [Электронный ресурс] / Международный музыкальный журнал Harmony. – Баку, 2010, Выпуск №9. URL: http://harmony.musigidunya.az/Rus/archivereader.asp?s=12054&txtid=433

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti milli fortepiano caz repertuarının interpretasiya problemidir.

Tədqiqatın predmeti isə görkəmli Azərbaycan pianoçularının fortepiano caz repertuarı istiqamətində ifaçılıq fəaliyyətinin təhlilidir. Buna əsasən, tədqiqatın predmetinə audio – və video – yazıların toplanması və təhlili də daxildir. V.Mustafazadə və A.Mustafazadənin dissertasiyada istifadə olunmuş əsərləri nəşr edilmiş materialdır.

Tədqiqat materialı iddiaçı tərəfindən ifaçıların səs yazıları və videoyazıları dinləməklə, Azərbaycan pianoçularının improvizasiyalarının musiqi materialı öyrənilməklə toplanmış və təhlil edilmişdir. Geniş ifaçılıq materialı dissertasiyanın faktiki əsasını təşkil edir.

Qismən, musiqi materialı, tədqiqatın faktiki əsası olaraq, süni intellekt (AI) proqramı vasitəsilə yaradılmışdır. Belə ki, dissertasiyada istifadə olunan V.Mustafazadə və A.Mustafazadənin əsərləri artıq çap olunmuş materialdır.

Lakin R.Babayevin, S.Qəmbərovun, E.İ.Məmmədovun, Ş.Növrəslinin və İ.Sarabskinin caz kompozisiyaları təhlil edilərək bu (https://klang.io/piano2notes/),(http://www.mysheetmusictranscriptions.com) saytlarda nota salınmışdı, sonradan bu sahədəki mütəxəssislər tərəfindən redaktə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi interpretasiya problemini Azərbaycan pianoçularının ifaçılıq fəaliyyətində caz repertuarı üzərində iş prosesi kimi öyrənməkdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

1. Caz repertuarının interpretasiyası nəzəriyyəsində meyarların ciddi akademik pianoçuluq məktəbinin təmsilçisi və sırf caz pianoçuluğu nümayəndəsi tərəfindən müəyyən edilməsi.

2. Azərbaycan klassik pianoçularının ifaçılıq fəaliyyətləri əsasında caz elementləri ilə fortepiano əsərlərinin ifaçılıq təhlilinin qurlması.

3. Sovet dövrünün (1930-1990) Azərbaycan caz pianoçuları V.Mustafazadə və R.Babayevin ifaçılıq fəaliyyətlərinin nümunəsində interpretasiya probleminin öyrənilməsi.

4. V.Sadıxovın, Ə.Mustafazadə, S.Qəmbərovun yaradıcılığı nümuməsində postsovet dövrünün (1990-2008) bəstəkar-interpretator-pianoçuları, aranjimançı-interpretator-pianoçularının müəllif caz kompozisiyalarının kompozisiya xüsusiyyətlərinin üzə çıxarılması.

5. E.İ.Məmmədov, Ş.Növrəsli, İ.Sarabskinin yaradıcılığı nümuməsində müasir dövrün (2009-2021) bəstəkar-interpretator-pianoçuları, aranjimançı-interpretator-pianoçularının müəllif caz kompozisiyalarının kompozisiya xüsusiyyətlərinin üzə çıxarılması.

**Tədqiqat metodları.** Bu dissertasiyanın mövzusu ilə bağlı problemlərin həllində iddiaçı rus və əcnəbi caz tədqiqatçılarının musiqişünaslıq metodlarının aparıcı prinsiplərinə istinad etmişdir. Caz interpretasiyalarının təhlilində bütöv təhlil metodu ilə yanaşı, fəsillərin bölmələri üzərində işləyərkən analiz və sintez metoduna da üstünlük verilmişdir. Kompozisiyaların təhlilində daha geniş şəkildə müqayisəli-tarixi metoddan istifadə olunmuşdur. Mövzu ilə bağlı musiqi və elmi materialların toplanması işində empirik metoddan istifadə edilmişdir. Buraya həmçinin süni intellekt (AI) proqram təminatının və dissertasiya müəllifinin notlu mətnlərin təşkili sahəsində bacarıqlarının köməkliyi ilə caz kompozisiyalarının notlu mətnlərinin yaradılması işi daxildir. Bu dissertasiyanın yazılmasında Azərbaycan caz pianoçularının interpretasiya üslublarının (əsərlərinin) öyrənilməsinin aparıcı metodlarından biri də ifaçılıq təhlili metodu olmuşdur.

Bütün yuxarıda sadalanan metodlar əsasında 1941-ci ildən başlayaraq bu günə qədər Azərbaycanda pianoçuluğun caz tarixinin tədqiqi istiqamətində iş aparılmışdır. Buraya elmi ədəbiyyatın və keçmişdə nəşr olunmuş publisistik, qəzet və jurnal materiallarının öyrənilməsi, həmçinin sənədli filmlərə, videokonsertlərə CD albomlarında və YouTube kanalının video-hostinqində caz pianoçu-improvizatorlarının və akademik musiqiçilərin fərdi çıxışlarına baxış və onların təhlili daxildir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində irəli sürülən əsas müddəalar aşağıdakılardır:

- Caz pianoçusu fortepiano ifaçılığı tarixində çoxprofilli musiqiçi nümunəsidir. İcra prosesində ifaçı funksiyasının əhəmiyyətini xüsusilə vurğulamağa dəyər ki, bura həm də ifa tərzinin

formalaşdırılması, obrazın qurulması və müxtəlif səslənmə üsullarının vacibliyi daxildir.

- Caz ifasında "canlı" ifa ilə əlaqədardır ki, bu da pianoçunun improvizator və ifaçı kimi çoxfunksiyalı rolunu izah edir.

- Caz pianoçuluğunun əsas inkişaf yollarının formalaşması üçün tarixi ilkin şərtlər sovet və postsovet dövrünün pianoçuları V.Sadıxovun, V.Mustafazadənin və R.Babayevin yaradıcılığında ən bariz şəkildə özünü büruzə vermişdir.

- Müasir caz pianoçularının yaradıcılığında cazın avanqard üslubları ilə qarşılıqlı əlaqə prosesi, eləcə də klassik pianoçuluq ənənələri ilə varislik izlənilir.

**Tədqiqatın elmi yeniliyi.** Bu tədqiqat çərçivəsində ilk dəfə olaraq Azərbaycan musiqiçilərinin caz repertuarının akademik təhsil almış pianoçular və caz pianoçuları tərəfindən interpretasiyalarının müqayisəsi təqdim olunur. Həmçinin burada ilk dəfə olaraq istənilən interpretasiya prosesi üçün notlu mətnin olub-olmaması meyarı izah edilir. V.Mustafazadə və R.Babayev kimi bəstəkar və pianoçuların kompozisiyaları məqsədyönlü ifaçılıq təhlilinə məruz qalır və burada onların hər birinin müəllif üslubunun xarakterik xüsusiyyətləri aşkarlanır. Müasir fortepiano cazının təmsilçiləri – A.Mustafazadə, S.Qəmbərov, İ.Sarabski, E.İbrahim, Ş.Növrəslinin timsalında Azərbaycan cazının ənənələrinin qorunub saxlanmasında varislik nümayiş etdirilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu tədqiqat işi iki aspektdən diqqəti cəlb edir: Azərbaycan pianoçusunun caz repertuarı üzərində iş zamanı interpretasiya məharəti aspektindən və Azərbaycanda caz pianoçuluğunun geniş mənzərəsinin təsviri baxımından.

Bu səbəbdən dissertasiyanın əsas müddəaları "Pop-musiqi və cazın tarixi və nəzəriyyəsi", "Caz ifaçılığının əsasları" və "Fortepiano sənətinin tarixi" kimi kurslar çərçivəsində estrada-caz ifaçılığı tələbələri üçün bir sıra fənlərin tədrisində istifadəsi baxımından yeni və dəyərli görünür. Bu tədqiqatın müxtəlif proseslərində yaranan bir çox fikirlər Azərbaycanda caz pianoçuluğunun məsələlərinin tədqiqi sahəsində alimlərin gələcək araşdırmaları üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** İşin əsas müddəaları respublika və beynəlxalq konfranslarda müzakirə olunmuşdur: "Rok-mədəniyyət və caz: ənənələr, müasirlik, perspektivlər" Çelyabinskdə (Rusiya), 2018-ci ildə Bakıda keçirilən İSME konfransında (Turkish sessions), 2016-cı ildə Doktorantların və gənc tədqiqatçıların konfransında, "Türk Cümhuriyyəti – 100" konfransında, Bakıda (Azərbaycan) "Musiqişünaslığın aktual problemləri" konfransında. Həmçinin tədqiqatın əsas nəticələri elmi məqalələrdə təqdim olunmuşdur. Onların arasında "Musiqi və Zaman" (Rusiya, Moskva), "Musiqi Dünyası", "Konservatoriya", "Axtarışlar" adlı nəşrlər qeyd edilə bilər.

**Dissertasiya işinin yerinə yetirdiyi təşkilatın adı.** Dissertasiya Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında tamamlanmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümümi həcmi.** Dissertasiya giriş, iki fəsil, dörd paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavədən ibarətdir. Əlavələrə qeydlər daxildir. Dissertasiya bölmələrinin struktur ölçüsü aşağıdakı kimidir: Giriş – 11 səhifə (17.077 işarə), I Fəsil – 78 səhifə (97.705 işarə), II Fəsil – 72 səhifə (92.194 işarə) və nəticə – 11 səhifə (17.304 işarə). İstifadə olunmuş ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla, dissertasiya 172 səhifədən (224.280 işarə) ibarətdir.

## DİSSERTASANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və elmi işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə təqdim edilən əsas müddəalar, elmi yenilik, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılır.

**"XX əsr Azərbaycan fortepiano ifaçılığında təfsir problemi" adlı birinci fəsil** iki paraqrafdan ibarətdir. **Birinci fəslin birinci paraqrafı "Azərbaycan klassik pianoçularının ifaçılıq fəaliyyətləri əsasında caz elementləri ilə fortepiano əsərlərinin ifaçılıq təhlili"** adlanır.

XX əsrin birinci yarısında Azərbaycan pianoçuları mühitinə caz musiqisinin bütün ən mühüm rəmzləri nüfuz etmişdir. XX əsrin

40-cı illərindən 70-ci illərinədək Azərbaycan pianoçuluğunun musiqi mədəniyyətində caz pianoçuluğunun üç istiqaməti formalaşmışdır: 1) konkret janr və ya digər caz notlu mətnini dəqiqliklə ifa edən klassik pianoçu; 2) populyar mövzularda işləmələr və transkripsiyalar yaradan aranjimançı-pianoçu-cazmen; 3) caz pianoçu-improvizator-bəstəkar, öz kompozisiyalarının müəllifi.

İstər bütün dünyada, istərsə də Azərbaycanda caz pianoçularının sənətində caz interpretasiya modellərinin öyrənilməsi problemi aşağıdakı hadisələrlə iç-içədir:

1) dəqiq notlu mətnlə işi əks etdirir

2) işləmənin və ya transkripsiyanın yaranması ilə əlaqəli interpretasiya prosesini nümayiş etdirir

3) pianoçu-cazmen və bəstəkarın müəllif kompozisiyası ilə yaranan interpretasiya

Klassik caz notlu opusları Azərbaycanın bir çox görkəmli akademik pianoçularının repertuarına daxildir. Burada Qara Qarayev, Tofiq Quliyev, Rauf Hacıyev, Vaqif Mustafazadə, Əzizə Mustafazadənin əsərlərini qeyd etmək olar.

T.Quliyevin fortepiano yaradıcılığını səciyyələndirərkən milli intonasiya, rus və Avropa klassik mahnı ənənələri və müasir afro-amerikan estradasının xüsusiyyətləri ilə sovet mahnısı kimi bir-biri ilə əlaqəli bir neçə kompozisiya qatının parlaq ifadəsini qeyd etməmək olmur. Onun musiqi əsərlərindəki caz istiqaməti isə ən parlaq ifadə vasitəsidir. T.Quliyevin üslubunun ən mühüm caz ideyaları sırasında biz "dolaşan aksentlər" texnikasını, caz tonikalarını, ellipsisləri, qarşı-qarşıya qoymaları, paralel səslənmələri, janr ritmlərini, bi-bop tempi vurğulayırıq.

Nəğməkarlıq, xüsusən də romansların melodikası T.Quliyevin fortepiano üçün **"Variasiyaları"ndan (1952)** başlayaraq bütün fortepiano opuslarına nüfuz etmişdir. Tədqiqatda, **silsilənin iki parlaq ifasının – pianoçular Nelli Məmmədovanın (1953-cü ilin lent yazısı) və Ədilə Əliyevanın (2013-cü ilin lent yazısı) interpretasiyasında – ifaçılıq təhlilini təqdim edir.**

Gözəl, ifadəli və melodik mövzu ətrafında hər biri müəyyən bir janr xəttini təmsil edən on variasiya birləşir. Burada romans lirikası (№1, 2), skertsoz xarakterli (№4), balet adajioları ruhlu (№5),

təntənəli himnlər (№6, 10), ekspromtlar (№4, 7), dinamik tokkatlar (№8, 9) və elegiyalar (№3) obrazlarına rast gəlinir. Lirik-nəğmə variasiyaları üslubunda rus romanslarının intonasiya xüsusiyyətləri, hətta çox vaxt rus klassiklərinin – Qlinka, Çaykovski, Rimski-Korsakov, Raxmaninov, Şopenin romans nümunələrindən elementləri, Çaykovskinin intonasiyalarını və qismən rus orientalistlərinin elementlərini aydın eşitmək olar.

Pianoçu Nelli Məmmədova tərəfindən "Variasiyalar"ın ifasını interpretasiya adlandırmaq olar. Hər bir variasiyanın təkrarolunmaz əhval-ruhiyyəsi, ilk növbədə onun mövzu ilə obrazlı əlaqəsi hər bir miniatürdə vurğulanır. Səslər çox gözəl ifa olunur, onların hər birində pianoçu sirr, vahid janr xəttində birləşən Şərq və Qərb mahnılarının rənglərini tapır. Müxtəlif fakturaların incə işlənmiş filiqranlığı ilə yanaşı, N.Məmmədovanın əsas pianoçuluq gücü incə işlənmiş, dərindən hiss olunan ifadələrdə, hər bir melodiyanın vurğuları məharətlə yerləşdirilmiş səs aparıcılığındadır. Zərif sıralanmış səsaltı fakturada az qala hər bir səsləndirmə mövzunu inkişaf etdirən ayrıca səsə çevrilir. Silsilənin dinamikanı və texnikanı göstərmək lazım olan miniatürlərinə gəlincə, bu, ciddi şəkildə obrazlı məzmuna və arxitektur baxımından qurulmuş dramaturgiyaya tabe olaraq gerçəkləşir. Aqogik kənarlaşmalarda pianoçu hisslərdən qaynaqlanmır, emosional dolğunluq heç vaxt ön plana çıxmır. Verilmiş obrazın N.Məmmədovanın ifasına çevrilməsi məsələsində bədii konsepsiyasının müəllif tərəfindən dərk edildiyi hiss olunur.

Variasiyaların sadə, iddiasız mövzusu A.Əliyevanın ifasında təsirli və ruhlandırıcı səslənir. Obrazın poetikliyi və onun təcəssümü səsin melodik gözəlliyini və ahəngdarlığını tam şəkildə açır, melodik xətlərin relyefliyi isə ən kiçik səs çalarları ötürür. Verilmiş obrazın A.Əliyevanın ifasına çevrilməsi məsələsində müəllifin bədii konsepsiyasının onun pianoçuluq imkanları ilə vəhdətdə dərk edilməsi hiss olunur. O, Azərbaycan melodiyasının ahəngdarlığını və akademik məktəbin ənənələrini özündə birləşdirir. Onun ifasında səs palitrası Azərbaycan məqam-ahənginin intonasiyadaxili qatlarının müxtəlif cəhətləri üzə çıxır, məzmunca canlı və parlaq musiqi təsvirləri ümumi ifadəli-musiqi ideyasına tamamilə tabe olur və sintetik əlaqədə çıxış edir.

Akademik ənənələr tərəfindən tematik dramaturgiyanın çatdırılmasında təfəkkürün parlaqlığını, forma bütövlüyünü izləmək olar, onun ifası yumşaq və zərif səslənmə ilə seçilir, o, səs toxumasının polifonik komponentini ön plana çıxarır və zərif melodik çalarları qabarıq şəkildə çatdırır.

Klassik pianoçuluq tarixində Q.Qarayevin yaradıcılığı XX əsrin milli bəstəkarlıq məktəbi ilə müasir musiqinin birləşməsidir. Onun melodiyaları bəstəkarın yaradıcılıq laboratoriyasına təsir edən müxtəlif üslublarda innovativ tapıntıların və cərəyanların sintezi kimi çıxış edir. Onun üslubunun mürəkkəbliyi obrazlarda, intonasiyalarda, mövzunun işlənmə strukturunun yeniliyində hiss olunan milli folklorun vəhdətidir. Ancaq bu, Qaraevin yaradıcılığında fəal istifadə etdiyi əcnəbi folkloru istisna etmir. Onun baxışları yeni ifadə vasitələri axtarışına yönəlmişdi ki, bu da təbii olaraq onun harmonik dilinə yeni qaynaqlar gətirirdi. İspan, Amerika və Afrika mədəniyyətinə müraciət müəllifin musiqisini parlaq, rəngarəng ritmlərlə zənginləşdirmiş və akademik ənənənin musiqi formullarına çox üzvi şəkildə siyarət etmişdir.

**Azərbaycanın Xaıq Artisti, professor, pianoçu F.Bədəlbəylinin interpretasiyasında Q.Qarayevin 23 nömrəli F-dur Prelüdiyanın ifaçılıq təhlili.** Musiqi materialının təfsiri məsələsində F.Bədəlbəyli caz estetikasının üslub xüsusiyyətlərini dünya pianoçuluğunun akademik ənənələri ilə sintez edir. Bəstəkar Qarayev mətninin dolaşan aksentlər və aydın ritmlər hüdudlarında F.Bədəlbəyli polifoniya şəraitini, milli melizmatika naxışlarını, kek-uok yumoristik janr ritmlərini nümayiş etdirir. Bu elementlər vasitəsilə interpretatorun mürəkkəb çoxşaxəli işi bu Qarayev mətninin polimetro-bitinin canlılığının təcəssümü ilə formalaşır. Drayva, svinqə nail olmaq üçün əsas şərt, əlbəttə ki, müəllifin bütün dolaşan aksentlərinin həyata keçirilməsindəki ciddilikdir.

**Q.Qarayevin "Eskiz" pyesinin pianoçu Ülviyyə Hacıbəyovanın interpretasiyasında ifaçılıq təhlili.**

Kompozisiya Q.Qarayev tərəfindən Aleksis Parnisin "Afrodita adası" dram tamaşası üçün yazılmışdır. Fraqmentin fortepiano təqdimatında müasir təfsirində bəzi pianoçular pyesin XX əsrin 60-cı illərinin ənənələrini əks etdirən caz kontekstini vurğulayırlar. Pyesin

üslubu və xarakteri D.Brubekin (“Thank you”), B.Evansın (“Waltz for Debby”) ən parlaq və təsirli kompozisiyalarını çox xatırladır.

Müasir Azərbaycan pianoçuluq məktəbinin nümayəndəsi Ü.Hacıbəyova melodik və harmonik cizgilərin rəvanlığını çatdırır, əsərin ümumiləşdirilmiş romantik məcrasını açır. Belə ki, Ü.Hacıbəyovanın interpretasiyasında inkişafda olan xətlərin homofonik-harmonik quruluşu ideyası yaxın planda üzə çıxır. O, Qarayevin pianoçuluq cazında ahənglərin melodiyasını və gözəlliyini, ellipsislərin hamar dəyişkənliyini vurğulayır. “Eskiz”də ümumi caz komponentləri də mövcuddur. Bu, baslarda dörddəbirlərin mütləq nəbzi, ritmin melodiyasında ternar ritmikadır.

**Pianoçu Fərhad Bədəlbəylinin interpretasiyasında V.Mustafazadənin fortepiano və orkestr ilə konsertinin ifaçılıq təhlili.** Azərbaycan fortepiano ifaçılığında caz sənətində konsert janrı V.Mustafazadənin yaradıcılığında təqdim olunmuşdur. Bu gün bu əsər unikal əsərdir, çünki burada caz estetikası və şərq rəngləri akademik ənənələrlə əks olunaraq, XX əsrin müasir tendensiyaları ilə əlaqədə aydın şəkildə görünən ən uğurlu təcəssümünü tapmışdır.

Müəllif ideyasının və F.Bədəlbəylinin yaradıcılıq istedadının məcmusu təkcə yaradıcı “mən”in Mustafazadəyə “ötürülməsində” deyil, ifa tərzi və üslubunda da özünü göstərir. O, “şərq” koloritini akademik pianoçuluq ənənələri ilə sintez edərək vurğulayır. Bundan əlavə, obraz F.Bədəlbəylinin interpretasiyasında da romantik pianoçuluq məktəbinin prinsipləri ilə dialektik əlaqədə Mustafazadə nəqlinin dramatik prinsipini qoruyub saxlayır. Belə ki, Şopendən - rəngarəng lirik obraz, Listdən – geniş miqyaslı təfəkkür və musiqi ideyalarının konsertlə həyata keçirilməsi.

**Pianoçu Murad Adıgözəlzadənin interpretasiyasında C.Qerşvinin “Blyuz tonlarında rapsodiya” əsərinin ifaçılıq təhlili.** Bəstəkarın fikrinə əsasən, beş musiqi mövzusu XX əsrin 20-30-cu illərinin müxtəlif caz üslublarını və yazı texnikasını əks etdirir. Mövzuların üslub müxtəlifliyini nəzərə alaraq, təhlil zamanı dəqiq dramatik nəqletmə xətti yaratmaq üçün ifaçıdan müəllifin musiqi fikrini vahid ifadəli vasitələr sisteminə birləşdirə bilməsi tələb olunur. Adıgözəlzadə qoyulmuş tapşırıq çərçivəsində lazımlı bədii obrazı tam dəqiqliklə canlandırır.

İfanın texniki tərəflərini üzə çıxararaq, “məxməri” səslənməni, geniş harmonik keçidlərin aydın artikulyasiyasını qeyd etmək olar. Obrazlı vasitələr baxımından Adıgözəlzadə XX əsrin caz ənənələrinin və Amerika urbanist musiqi mədəniyyətinin dəqiq “ötürülməsi” üçün lazım olan ifadəli intonasiyaları “tapmağı” bacarır.

Musiqi mətninin təfsiri çərçivəsində caz mədəniyyəti üçün olduqca qanunauyğun olan sinkoplaşdırılmış metrik sistemin özəlliklərini nəzərə alaraq, Adıgözəlzadə ritmik təsvirin improvizasiya transformasiyaları olmadan daxili nəbzini və yaradıcı nəfəsini qoruyub saxlamağa çalışır.

**Birinci fəslin ikinci paraqrafı “Sovet dövründə Azərbaycanın caz pianoçularının təfsir sənəti (1930-1990) V.Mustafazadə, R.Babayev” adlanır**.

Sovet dövrü Azərbaycan cazının istiqaməti XX əsrin 30-90-cı illərini əhatə edir. XX əsrin 20-ci illərinin əvvəllərində Bakıda caz ənənələrinin formalaşması üçün ilk mədəni zəminlər B.Renski, L.Utyosov, Q.Lansberq, A.Sfasmanın estrada orkestrlərinin konsert gecələri olmuşdur ki, burada məşhur amerikan və sovet kinofilmləri, operettaları və musiqili tamaşalarından populyar melodiyalar ifa olunurdu.

Məhz bu dövrdə film nümayişindən əvvəl xarici və sovet musiqisinin hitlərini ifa edən ilk həvəskar caz orkestrləri yarandı. Bakıda caz sənətinə maraq oyanmağa başladı.

Azərbaycanda caz orkestrlərinin yaradılmasında Azərbaycanın qabaqcıl peşəkar musiqiçiləri iştirak edirdlər. Belə ki, 1941-ci ildə ilk Azərbaycan dövlət estrada-caz orkestrinin yaradılması ilə gənc bəstəkar və pianoçu Tofiq Quliyevin və dirijor Niyazi Tağı-zadə Hacıbəyovun adları Azərbaycan tarixinə yazılmış oldu.

V.Mustafazadə (“Mart”, “Fantaziya”, “Qara qaşın vəsməsi”) və R.Babayev (“Portret”, “Mister Miles”, “10/8”, “Kuba-məhəbbətin mənim”) kimi musiqiçilərin yaradıcılığı nümunəsində “caz interpretasiyası” anlayışının xüsusiyyətləri göstərilmişdir. O, Sovet Azərbaycanının caz sənətində mövcud olmuş bütün növ caz fortepiano kompozisiyalarının (caz transkripsiyası, caz işləməsi, caz aranjimanı, caz müəllif əsəri) təhlilində təqdim olunmuşdur.

**İkinci fəsil – "Postsovet dövrünün Azərbaycan caz fortepiano ifasında interpretasiya problemi XX əsrin sonu – XXI əsrin əvvəlləri"** – iki paraqrafdan ibarətdir.

**Birinci paraqraf "Postsovet dövrünün Azərbaycan caz pianoçularının yaradıcılığında təfsir məsələləri (1990-2008) V.Sadıxov, A.Mustafazadə, S.Qəmbərov"** adlanır.

Postsovet dövründə Azərbaycanda gənclərin caza diqqəti artmışdı və bu, V.Mustafazadə adına "Karvan" caz klubunun açılmasına səbəb oldu. 8-14 aprel 2002-ci il tarixində **"American Voices"** qeyri-kommersiya təşkilatının dəstəyi ilə **I Caspian Jazz & Blues Festivalı** keçirildi. Festival çərçivəsində pianistlər S.Qəmbərov, A.Fiqarova, R.Ağababayev, M.Del Ferro triosunun, truba ifaçısı M.Eykin, saksofonçular V.Enqlertin, F.Fifildin və gitaraçı T.Tielemansın interpretasiyaları səsləndirildi.

Artıq 2003-cü ildə 2015-ci ilə qədər fəaliyyət göstərmiş Bakı Caz Mərkəzi açıldı. O, caz festivallarının ənənəsini bərpa etdi. Belə ki, 2004-2007-ci illərdə Azərbaycanda keçirilən caz festivalları çərçivəsində dünya cazının bir çox ulduzları ilə yanaşı, Azərbaycan cazının bir sıra görkəmli simaları çıxış etmişlər. Burada Co Zavinula, Hörbi Henkok, Tuts Telemans, El Cerro, Əzizə Mustafazadə. Bill Kobem, Vaqif Sadıxov, Cəmil Əmirov, Salman Qəmbərov, Emil, İbrahim, Emil Əfrasiyab, Şahin Növrəsli, İsfar Sarabski və bir çox digər ustadların çıxışları olmuşdur.[32]

**Vaqif Sadıxov** sovet və Azərbaycan caz musiqiçilərinin yaşlı nəslinin nümayəndəsidir. Onun ifası parlaq və melodik cəhətdən zəngin kompozisiya quruluşu, filiqranlıq və melodik təsvirin zərifliyi ilə seçilir. Onun interpretasiyaları romantic-improvizatorun üslubunu ortaya qoyur.

Nümunə qismində onun "Caspian Groove" albomundan "Küçələrə su səpmişəm", "Sarı Gəlin", "Oxuma gözəl" Azərbaycan melodiyalarının aranjimanlarını qeyd etmək olar. Burada faktura səslənməmi yeni obrazlı məzmunla zənginləşdirən və lirik obrazın ifadəliliyinə yönəlmiş bir çox melodik xətlərdən yığılmışdır.

---

[32] Сананоглу, Р. (Мустафаев) Этюд в национальных тонах триколора. Джан Азербайджан, Джаз Азербайджан // – Баку: IRS / Наследие, – 2006. № 22, – с.44–46. URL: https://www.irs-az.com/pdf/090621205448.pdf

V.Sadıxovun ifa tərzini E.Qarner, A.Camal, T.Flenegen kimi caz pianoçularının üslubu ilə müqayisə etmək olar. Həmçinin onun ifası materialın inkişafı prinsipləri baxımından pyesi B.Evansın və Ç.Korianın improvizasiya əsərlərinin üslubunu xatırladır.

Müasir caz pianoçuluğunun nümayəndələri arasında **Əzizə Mustafazadənin** yaradıcılığı Azərbaycan xalq musiqisinin elementləri üzərində qurulmuş modal cazın xüsusiyyətləri ilə fyujn-caz üslubunun fakturasını özünəməxsus şəkildə birləşdirir. “Boomerang”, “Melancholic Princess”, “Mozart Jazz Ballade” kompozisiyalarının nümunələrindən istifadə etməklə onun üslubunun fərqli xüsusiyyətlərini müəyyən etmək olar. A.Mustafazadə yaradıcılığı öz estetik təbiətinə görə parlaq ifadə vasitələri, faktura rəngarəngliyi, melodik materialın aydın və ardıcıl inkişaf konsepsiyası, hiss aparatına tam nəzarəti ilə seçilir.

Üslub nöqteyi-nəzərindən qeyd etmək olar ki, o, Azərbaycan adət-ənənələrinin avropalı baxışından yenidən dərk edilməsi ilə yanaşı, klassik akademik ənənədə üslub estafetini atası V.Mustafazadədən daşıyır, F.Şopenin, S.Prokofyevin, F.Listin, A.Skryabinin yaradıcılığına yaxındır, ideya-obrazlı məzmununa görə isə Çik Coria, Ursula Dudzyak, Herbi Henkok və başqaları ilə paralellər tapmaq olar.

“Lieder Leaders” layihəsinin timsalında **S.Qəmbərovun** yaradıcılığında klassik caz və etno-musiqi ənənələrinin sintezindən nümunələr təqdim olunmuşdur. S.Qəmbərov iki qiyafədə musiqiçi olaraq İsmayıl Hacıbəyov ənənələrində peşəkar avanqard bəstəkar və R.Babayevin eksperimental xəttinin davamçısı olan cazmen kimi öz yaradıcılığında meynstrim, postbop, fyujn-caz prinsiplərini müasir avanqard üslub prinsipləri və avanqard bəstəkarlıq sənətinin texnikaları ilə birləşdirir. Forma, səslənmə və cazın ifadə prinsipləri ilə işləyərkən o, H.Henkok, K.Jarett, qismən də Qonzalo Rubalkaba və Ç.Korianın pianoçuluq üslublarına əsaslanır. Burada həm də dünyanın müxtəlif ölkələrinin folklorunu, müxtəlif ölkələrin bəstəkar musiqisini, XX əsrin bəstəkar yazı texnikasını və təbii ki, bütün istiqamətlərdə caz standartlarının öyrənilməsini qeyd etmək olar.

**İkinci paraqraf "Yeni nəsil Azərbaycan caz pianoçuları E.İ.Məmmədov, Ş.Növrəsli, İ.Sarabskinin yaradıcılığında təfsir məsələləri (2009-2021)"** adlanır.

XXI əsrin əvvəllərindən bu günə qədər Azərbaycan caz mədəniyyətinin inkişafında yeni meyillər yaranır. Bu dövrü Azərbaycan cazının "üçüncü qolu" adlandırmaq olar. Bu, ilk növbədə, yeni nəsil caz pianoçu-improvizatorlarının (E.İ.Məmmədov, İ.Sarabski, Ş.Növrəsli) meydana çıxması ilə əlamətdardır. Bu nəsil hot-caz istiqamətinin kompozisiya effektlərinin üstünlük təşkil etdiyi irihəcmli kompozisiyalar yaratmağa başladı. Məhz Azərbaycan cazının üçüncü qolunun nümayəndələri öz əsərlərini təkcə caz festivalları və caz müsabiqələri çərçivəsində deyil, həm də geniş xarici qastrol solo konsertləri formatında təqdim etməyə başladılar.

Azərbaycan cazının "üçüncü qolunun" istedadlı və parlaq pianoçularından biri **Emil İbrahim Məmmədovdur (1973-2011)**. Onun pianoçuluğunun fərqli cəhətləri arasında bütün növ fakturaların açıqlanmasında melodiklik və mütləq aydınlıq və formaların klassikliyi ilə qorunan toxunuşun yumşaqlığı (tuşe) var. Onun "Old Boulevard", "Zibeydə" kompozisiyalarının nümunəsində pianoçuluq istedadının əsasını təşkil edən cazın klassik üslub və janrlarının lirikası və incə hissini qeyd etmək lazımdır. Pianoçuluq üslubunun müəyyənedici xüsusiyyətlərinə sərt və "ciddi" ifa tərzi, ifadəli melodik təsvirin təqdimatı fonunda aydın metroritmik pulsasiya ilə birləşən neytral ifadəli rənglərə və səsin tembr çalarlarına meyillik daxildir. Musiqi materialının ifa tərzi və ifadə üslubuna görə E.İbrahim kul-caz dövrünün pianoçularına xas olan fikirləri ortaya qoymuşdur. Yəni onu B.Evans, M.Petruççiani, K.Carett, M.Kamilo və başqalarının ənənələrinin davamçısı adlandırmaq olar.

Pianoçu **Şahin Növrəslinin** yaradıcılığını səciyyələndirərkən onun yerli musiqi ənənələrini dünya caz üslubları ilə necə fəal şəkildə birləşdirdiyini qeyd etmək olar. Onun üslubu Azərbaycan caz məktəbinin ənənələri ilə fyujn, kul, modern caz üslublarının eklektik birləşməsidir. Onun kompozisiyaları ("Prelude in E-minor", "Song of Ashug") parlaq harmonik dili və bədii-obrazlı özünüifadə vasitələri ilə seçilir ki, bu da onları fərqli və orijinal edir. O, fortepiano fakturasının melodik imkanlarını parlaq və orijinal kompozisiya

həlləri ilə genişləndirir, kompozisiyaların obrazlı sferasını “aşkar etməyi” bacarır, artıq məlum olan caz standartında yeni tembr səsləri və çalarları tapa bilir. Onun ifasının fərqli cəhətləri gözəl və melodik faktura, musiqi parçasının rəngarəngliyi və parlaqlığıdır.

Müasir Azərbaycan cazının uğurlu nümayəndəsi pianoçu **İsfar Sarabskidir**. “Déjà vu”, “Swan Lake”, “G-man” kimi kompozisiyaların nümunəsində o, caz üslublarının bütün kompozisiya üsullarını mükəmməl mənimsədiyini nümayiş etdirir və bununla yanaşı, ifa tərzi onu keçmişin ənənələrinin davamçısı və caz pianoçuluğunda yenilikçi kimi səciyyələndirir.

Səs ifadəliliyi məharətinə və artistlik cəsarətinə mükəmməl yiyələnərək o, caz standartının daxili məzmununu açmağı və “qabarıq” bədii obraz yaratmağı bacarır. İ.Sarabski zəruri tembr çalarlarından istifadə edərək, müasir avanqard, eləcə də elektron musiqinin müxtəlif üsullarını tətbiq etməklə səs palitrasını rəngarəng səs birləşmələri ilə “doldurur”, incəliklə “hiss edir” və təkrarlayır.

Sarabskinin ifa üslubu və tərzini təhlil edərək, onun pianoçuluğunun fərqli xüsusiyyətlərini – pianoçuluq fakturasının plastikliyini, parlaq obrazlığını, melodiyanın melodik karkasını üzə çıxarmaq bacarığını qeyd etmək olar. Səsin müxtəlif gradasiyalarından istifadə edilməsi, alətlərin müxtəlif qruplarının tembrinin səs xüsusiyyətlərini birləşdirə bilməsi, səslənmənin lazımlı intonasiya rənglərinə nail olması onu müasir pianoçular arasında fərqləndirir.

**Nəticədə** yuxarıda göstərilən bütün nəticələri ümumiləşdirərək, bütün tədqiqatın başlıca nəticəsini qeyd edə bilərik.

1. Caz pianoçusu aşağıdakı kimi təsnif edilə bilər: klassik pianoçu, notlu mətnin ifaçısı; caz transkripsiyası, caz aranjimanı, caz işlənməsi janrlarında çalışan aranjimançı-pianoçu-cazmen; caz pianoçu-improvizator-bəstəkarı, öz bəstələrinin müəllifi.

2. Caz pianoçularının interpretasiya prosesi notlarla yazıla bilən musiqi mətninin dərk edilməsi ilə bağlıdır və çox zaman audio-premyera şəklində təqdim olunur. Bu səbəbdən caz pianoçuluğu çərçivəsində ilk dəfə olaraq üç interpretasiya istiqamətinin mövcudluğu göstərilmişdir: notlu mətn üzrə interpretasiya (bu halda pianoçunun monofunksional rolu mümkündür); işləmə və ya

transkripsiyanın yaranması ilə iç-içə olan interpretasiya (bu halda pianoçunun çoxfunksiyalı fəaliyyəti üzə çıxır); pianoçu-cazmen-bəstəkarın müəllif kompozisiyası ilə yaranan interpretasiya.

3. Caz ifaçılıq sənəti dünyasında interpretasiya ilk müəllif ifasıdır. Bununla da caz ifaçısı eyni anda iki funksiyanı yerinə yetirir: improvizator və interpretator. Bir şəxs eyni zamanda iki funksiyanı yerinə yetirir – yaradıcı (bəstəkar) funksiyasını və əsərin oxucusu funksiyanı. Bu cür çoxfunksiyalılıq caz interpretasiyası sənətinin əsasını təşkil edir, lakin bu halda nəzərə almaq lazımdır ki, caz pianoçusunun müəllif ifasının premyerası notlaşdırılmamış, səs yazısına alınmamış musiqidir, ona görə də klassik musiqinin interpretasiyası və caz kompozisiyasının interpretasiyası müxtəlif mənşəyə malikdir.

4. İlk dəfə olaraq caz musiqisi istiqamətində "interpretasiya" termininin açılışı verilmişdir. Caz ifaçılığında "interpretasiya" termini eyni zamanda iki hadisəni ifadə edir: a) bu caz opusunun premyerası və b) bu, kompozisiyanın musiqi dilinin bütün komponentlərinin təhlilidir.

5. Azərbaycanda caz pianoçuluğunun inkişafında mühüm dalğa XX əsrin 90-cı illərində başlamışdır ki, burada sovet Azərbaycanı cazının yenilikçiləri – R.Babayev, V.Sadıxov öz işlərini davam etdirdilər və Azərbaycan cazının Cəmil Əmirov, Əzizə Mustafazadə, Salman Qəmbərovun fəal şəkildə təmsil etdikləri yeni məktəbi yaradılması bəyan edildi. Onlar eyni vaxtda proqressiv-caz istiqaməti tendensiyalarında Azərbaycan cazının interpretasiyasının qarışıq modellərini hazırlamağa başladılar.

6. Azərbaycan cazının XX əsrin 90-cı illərinin caz albomlarından başlayan və bu günə qədər genişlənən üçüncü qolu Azərbaycan avanqard caz istiqaməti adlanır. Bu istiqamətin görkəmli nümayəndələri E.İ.Məmmədov, Ş.Növrəsli, İ.Sarabskidir. Bu istiqamət ona görə şöhrət qazanmışdır ki, bu musiqiçilərin interpretasiyaları XX əsrin caz dünyasının demək olar ki, bütün islahatlarının tendensiyalarını özündə cəmləşdirmişdir.

Azərbaycanda fortepiano caz ifaçılığı bütün digər janr və sahələr qarşısında üstünlüyə malikdir ki, bu da müxtəlif klassik pianoçuluq məktəblərinin və caz ifaçılığının ənənələrinin

inteqrasiyasından ibarətdir və bu tarixi-mədəni amillərdən asılı olaraq, eləcə də janr spesifikliyinə görə qarşılıqlı əlaqədə tədqiq edilmişdir.

Bu unikal vəhdət nəticəsində XX əsrdə kifayət qədər tutumlu tarixi bir dövrdə həm caz fortepiano ifaçılığı, həm də onun "interpretasiya" kimi dəyərli bədii kateqoriyalarından biri formalaşır ki, bu da həm caz, həm də akademik üslubda Azərbaycan fortepiano ifaçılığında prioritet keyfiyyətdən və kateqoriyalardan irəli gəlir.

**Dissertasiyanın mövzusu ilə bağlı aşağıdakı əsərlər dərc edilmişdir:**


1. Амирова, Д.Т. Интерпретация в джазе // – Баку. Konservatoriya. – 2015. №2(28), – с.83-89.
2. Əmirova, C.T.Caz musiqisində improvizasiyanın inkişafı // – Баку.Musiqi Dünyası. – 2016. №4 (69), – s.45-47.
3. Амирова, Д.Т. Некоторые особенности интерпретации в композициях Вагифа Мустафазаде // Рок-культура и джаз: традиции, современность, перспективы, – Челябинск: ЮУрГИИ им. П.И. Чайковского, – 18 мая, –2016, – с.76-81.
4. Амирова, Д.Т. Вопросы интерпретации в исполнительской практике джазовых и классических музыкантов // Doktorantların və Gənc Tədqiqatçıların Respublika Elmi Konfransının Materialları. II cild, – Баку: ADSNU nəşriyyatı, – 24-25 мая, – 2016, – с. 487-489.
5. Амирова, Д.Т. Эволюция интерпретации в джазовой истории Азербайджана // ISME 33rd World Conference of International Society for Music Education, – Баку, – 15-20 июля, – 2018, – с.72-76.
6. Амирова, Д.Т. Творческие поиски азербайджанских джазовых музыкантов в начале XXI века // – Баку. Актуальные проблемы музыкальной науки, культуры и образования. – 2019. №2 (7), – с. 92-98.
7. Амирова, Д.Т. Понятие интерпретации на примере творчества джазовых пианистов Азербайджана // Musiqişünaslığın Aktual problemləri, – Баку, – 4-5 декабря, – 2019, – с. 167-171.

8. Əmirova, C.T. Postsovet məkanında Azərbaycan caz sənətində əsas üslub təmayülləri // – Bakı. Musiqi Dünyası. – 2020. 4/85, – s. 93-96.
9. Амирова, Д.Т. Основные этапы развития интерпретации в джазовом исполнительстве Азербайджана // – Москва: Музыка и Время, – 2021. №10, – с. 12-16.
10. Əmirova, C.T. Xarici pianoçuların yaradıcılığının caz klasikasının təfsiri ilə bağlı bəzi məsələlər // – Bakı. Konservatoriya. – 2021. №2 (51), – c. 51-62.
11. Амирова, Д.Т. Вопросы интерпретации в творчестве Азизы Мустафазаде // – Нахичевань. Axtarışlar. – 2022. №1(16), – с. 160-164.
12. Амирова, Д.Т. Проблема интерпретации в современном джазовом искусстве Востока (на примере сравнительного анализа композиций Фазиль Сая и Исфара Сарабского) // Türk Cümhuriyyəti -100 Beynalxalq elmi-praktiki konfransı. – Баку. Mütərcim, – 26-27 октября, – 2023, – с. 27-31.
13. Амирова, Д.Т. Единство традиций классической и джазовой музыки в азербайджанском музыкальном искусстве (1960-2000-е годы) // Материалы 3-й Международной научно-практической конференции "Диалог музыкальных культур Востока и Запада". – Баку. Mütərcim, – 14-15 декабря, – 2023, – с. 66-71.



25

Dissertasiyanın müdafiəsi ___27___ ___dekabr___ 2024-cü il tarixində saat ___11⁰⁰___ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___27___ ___noyabr___ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.11.2024

Kağızın formatı: 60x84 1/16

Həcmi: 41324 işarə

Tiraj: 30